PALMALİ
GROUP OF COMPANIES

Bitiklər **PALMALİ** Şirkətlər Qrupunun prezidenti sayın Mübariz Qurban oğlu Mənsimovun dəstəyi ilə işıq üzü görmüşdür.

## «**Doqquz Bitik**» sırası

**I Bitik.** TARİXİ QAYNAQLAR

**II Bitik.** TARİXİ COĞRAFİYA

**III Bitik.** ÖN ASİYADA QƏDİM TÜRK DÖVLƏTLƏRİ

**IV Bitik.** TARİXİ ETNOQRAFİYA

**V Bitik.** MİFOLOGİYADA TARİX

**VI Bitik.** ƏDƏBİYAT VƏ FOLKLORDA TARİX

**VII Bitik.** TÜRK DİLİNİN TARİXİ

**VIII Bitik.** TARİXİ ONOMASTİKA. TÜRK BOYLARI

**IX Bitik.** TÜRKLƏRİNİN SOYKÖKÜ. URMU TEORİYASI

Firudin Ağasıoğlu

9 BİTİK
İSLAMÖNCƏSİ TÜRK TARİXİ

13174-

IV BİTİK

# TARİXİ ETNOQRAFİYA

Azərbaycan Respublikası
Prezidentinin İşlər idarəsi
PREZİDENT KİTABXANASI

İSTANBUL - 2022

63.2(5)1 63.5(5)

Elmi redaktor: *AMEA-nın müxbir üzvü, prof. Vəli Əliyev,*
*AMEA-nın müxbir üzvü, prof. Cəfər Qiyasi*

Redaktor: *Prof. Ramiz Əskər, Həlimə Rzaquliyeva*

**Firudin Ağasıoğlu.** İslamöncəsi Türk tarixi. (Doqquz Bitik); IV Bitik: Tarixi etnoqrafiya. İstanbul, 2022, 464 s.

Türk etnosunun Atayurdunu və mənşəyini Ön Asiyada müəyənləşdirən 9 cildlik «Islamöncəsi Türk tarixi» (Doqquz Bitik) adlı əsər müəllifin bu sahədə apardığı 30 illik tədqiqatın sonucu kimi ortaya çıxmışdır. Bütövlükdə türk xalqlarının tarixini yeni konsepsiya olan Urmu teoriyası ilə ortaya qoyan bu çoxtomlu əsər tarixi qaynaqlar, tarixi coğrafiya, Ön Asiyada qurulan qədim türk dövlətləri, tarixi etnoqrafiya, tarixi onomastika, həmçinin folklor və mifologiyada tarix, türk dilinin tarixi, türklərin soykökü və Urmu teoriyası kimi ayrı-ayrı cildlərdə verilən mövzuları əhatə edir.

Ön Asiyanın ən qədim çağlarından Islamaqədərki dövrü əhatə edən IV cilddə qədim prototürklərin və azər türklərinin etnoqrafiya tarixindən bəhs olunur. Bu Bitikdə türk etnosunun maddi və mənəvi kultur dəyərləri, kultur gələnəkləri və dünya mədəniyyətinə verdiyi töhfələr gözdən keçirilir. Yazarın Urmu teoriyası IV Bitikdə etnoloji biliklərə, etnoqrafik bəlgələrə dayanır və Bitiyin sonunda bir neçə mövzu oçerklər şəklində «Əlavələr» bölməsində verilir.

(Müəllif hüqugları agentliyi. Şəhadətnamə № 5797)

ISBN 9-789952810868
© *Firudin Ağasıoğlu (Cəlilov)*

A 4603010000 / A-064-2014 qrifli nəşr

**Kapak ve Kitap Tasarımı:** ÖZGÜR ÖZDOĞAN
**Üretim Müdürü:** YAKUP AKYILDIRIM
**Baskı:** YIKILMAZLAR BASIN YAYIN PROM. ve KAĞIT SAN. TİC. LTD. ŞTİ.
15 Temmuz Mah. Gülbahar Cad. No: 62/B Güneşli-Bağcılar-İSTANBUL Tel: 212 515 4947
Sertifika No. 45464

## BAŞLIQLAR

1. Etnologiya ..... 5
Mədəniyət və kultur ..... 6
Arxeoloji kultur tarixi ..... 8
Mədəniyət tarixi. Kulturologiya ..... 25
Etnoqrafik söz yatırı (leksika) ..... 31
Qədim türk bilgələri (filosofları) Toksar, Anaxars, Qorqud ..... 45
2. Sosial qurumlar və dövlətçilik kulturu ..... 51
Qandaş sözlər (qohumluq terminləri) ..... 53
Sosial qruplar ..... 55
Sosial qurumlar ..... 61
Dövlətçilik kulturu ..... 75
3. Yaşam kulturu. Etnoqrafiya ..... 96
Şəhər-kənd kulturu ..... 97
Bozqır kulturu ..... 113
4. Təsərrüfat növləri ..... 124
Ovçuluq ..... 127
Ańçılıq (heyvandarlıq) ..... 133
Atçılıq ..... 156
Əkinçilik ..... 174
5. Sənətkarlıq ..... 194
Təkər, araba ..... 197
Dəmirçilik ..... 202
Dulusçuluq ..... 211
Toxuculuq ..... 219
Xalçaçılıq ..... 221

6. Incəsənət ........................................ 232
Bədiz (heykəl, şəkil) ........................................ 237
Arı yöntəmi ........................................ 249
7. Etnik kultur........................................ 258
Musiqi kulturu ........................................ 266
Geyim kulturu ........................................ 278
Yemək kulturu ........................................ 291
8. Etnik gələnək........................................ 301
Bayram gələnəyi ........................................ 305
Toy-düyün gələnəyi ........................................ 309
Yas gələnəyi ........................................ 315
Yuğ töréni və ağıt gələnəyi ........................................ 348
9. Etnoetiket (milli etiketlər)........................................ 352
Sonuc ........................................ 369
Əlavələr ........................................ 375
1. Qədim türk bilgəsi (filosofu) Anaxars ........................................ 375
2. «Pazırıq xalçası» (2500 illik türk xalçası) ........................................ 382
3. Prototürk içki qabı «Ayaq» (Etnoarxeoloji örnək) ........................................ 403
4. Türkün daş yaddaşı «Daşbaba» ........................................ 411
Qaynaqlar ........................................ 449
Qısaltmalar........................................ 462



## 1. ETNOLOGIYA

Qədim yunan sözü *etnos* tarix boyu müxtəlif mənalarda işlənsə də, son iki-üç əsrin elmi ədəbiyatında onun anlam tutumu müəyən çərçivəyə salına bilmişdir. Artıq bu söz əvvəlki kimi «bütpərəst», «yadelli», «sürü» və sair mənaları deyil, ortaq kultur, dil və milli dəyərləri olan hər hansı bir toplumu bildirir. Vaxtilə akad. N. Y. Marrın elmə gətirdiyi *etnogenez* termini artıq etnoqrafiya//etnologiya elmində *xalq* deyil, *etnos* termininden istifadəni zəruri etdi, çünki *Amerika xalqı, Iran xalqı,* həmçinin *Azərbaycan xalqı* deyimlərində etnik deyil, ayrı-ayrı etnik kökənli «vətəndaş» anlamı vardır. Müxtəlif etnik kökənli xalqların vahid siyasi qurum daxilində eyni kultur məkanında yaşaması eyni mədəniyətin daşıyıcıları olan *superetnos* kimi dəyərləndirilə bilir. Bu baxımdan, özündə müxtəlif etnik kulturların toplusunu əhatə edən Azərbaycan xalqının *superetnik* mədəniyətindən danışmaq olar və bu ayrıca araşdırma mövzusudur, bizim mövzumuz isə ümumtürk etnologiyasının tarixi fonunda türklərin Islamaqədərki tarixi etnoqrafiyasıdır.

Hər hansı bir etnosun eyni coğrafi ərazidə və eyni siyasi qurum daxilində yaşaması, eyni dildə danışması, eyni dinə tapınması kimi göstəricilər etnologiyada ön plana çəkilir. Lakin hər bir konkret etnosun etnologiyasını öyrənərkən bu göstəricilərə diferensial yanaşmaq gərəkir. Belə ki, ispan dili təkcə ispanların deyil, Latın Amerikasında meksikalı, argentinalı, çilili, kubalıların da danışdığı dildir, yaxud qaraçılar hansı ölkənin ərazisində yaşamasından asılı olmayaraq, milli kulturunu saxlayır və yaxud karaimlər yaşadıqları müxtəlif ölkələrdə türk dilini və tapındıqları yəhudi dinini qoruya bilmişlər. Azərbaycanda isə «dinayrı qardaş» deyimi müxtəlif türk boylarının ayrı-ayrı dinə (tanrıçılıq, yəhudi, xristian, islam) tapındıqlarından xəbər verir. Burada etnik coğrafiya, arxeologiya, antropologiya, onomastika, folklor, mifologiya, dil və etnogenez məsələləri üzərində geniş dayanmağa ehtiyac yoxdur, çünki bunlar sahələr üzrə ayrı-ayrı Bitiklərdə verilmişdir.

Etnogenez probleminin həllində etnoqrafik bəlgələr tutarlı dəlil sayılır, çünki etnosun etnik atributları etnoqrafik tədqiqatda daha aydın görünür, hətta kiçik etnoqrafik detallar etnosun kimliyi haqqında təsəvvür yarada bilir. Örnəyin, Sibir türklərinin dilini tədqiq edən V.V. Radlov iki cümlə ilə *karaqasların* türk və samoyed boylarının qarışması ilə yarandığını etnoqrafik bəlgələrlə verib onları tanıda bilir: «Karaqaslar gələnəkləri, adətləri və geyimlərilə qonşuları tatarlara bənzəyir. Bir qismi isə samoyed soyludur, çünki samoyedlər kimi ovçuluqla məşğul olur, maral bəsləyir və eynən samoyedlərdə olduğu kimi qış alaçıqları maral dərisilə qurulur».[1] Başqa bir örnək: Antik çağ yazarları skitlərin at südü (*kumız*) içməsindən bəhs edirlər, sonrakı çağlarda bu gələnəyin yalnız bozqır türklərində davam etməsi görünür. Bu etnoqrafik bəlgədən alınan sonuc skit (saqa) bozqır boylarının türk olmasıdır, kumız içən skitləri belə etnoqrafik gələnəyi olmayan fars, oset, rus və ya erməni (hay) saymaq bilimdışı baxış olar.

Göründüyü kimi, hər bir xalqın etnoqrafik gələnək və görənəkləri onun etnogenezini ortaya çıxaran bəlgələr kimi cox dəyərlidir, kimliyini bəlirləyən «pasport» qədər önəmlidir. Etnologiya tarixi coğrafiya, arxeologiya, antropologiya, dilçilik, sosiologiya, teologiya, folklor və mifologiya ilə bağlı elm sahəsi olduğu üçün burada maddi kulturla mənəvi kultur obyektləri vardır.[2] Mənəvi kultur göstəriciləri toplumun düşüncəsilə yoğrulmuş adət-ənənələri, davranış əxlaqını, ailədaxili və sosial münasibətləri, mərasim və törənləri, inanc, kult və tapınaqları əhatə edir. Bizcə, milli etnoqrafiyanın elmi əsasları, nəzəri məsələləri *etnologiyanın*, etnos və superetnosun mədəniyyətisə *kulturologiyanın* tədqiqat obyekti olmalıdır.

**Mədəniyyət və kultur**

Tanrının yaratdığı doğal (təbii) varlıq xaosun nizama salınması kimi dəyərləndirilirsə, insanın fiziki, zehni əməyilə ortaya çıxan maddi və mənəvi varlıqlar da (araba, silah, musiqi, fəlsəfə və s.) bəşəriyətin kultur gəlişməsilə yaranan mədəniyyət (sivilizasiya) sayılır. Ayrı-ayrı etnosların gələnək-görənəklər toplusu superetnosların kultur-mədəni dəyəri kimi yeni yaranan *kulturologiya* elmində öyrənilir. Xalq-

[1] *Радлов*, 1989, 88.

[2] İlk dəfə elmi ədəbiyatda A. Şavann (1784) tərəfindən işlənən *etnologiva* termini XIX əsrdə geniş yayıldı və bir sıra "Etnologiya qurumu" (Paris 1839, Amerika 1842) yaranmaga başladı.



ların yaşam tarixində formalaşan milli-etnik gələnəkləri *etnik kultur* adı ilə öyrənən *etnoqrafiya*, *etnologiya* (budun bilimi) elminin tarixi böyük deyil. Latınca «becərmə», «qayırma» və «düzəltmə» anlamlarını daşıyan *colere* (kolere) feilindən düzələn *kultura* sözü təbiətdə doğal yaranan şeyləri deyil, insan əli-qolu, bacarığı və zehni ilə yaranmışları bildirir.[3]

Tarixi-etnoqrafik araşdırmada etnosun «yerli» anlamında yunanca *avtoxton*, latınca *aborigen* adlanan boylardan və ya tədqiq olunan əraziyə «gəlmə» (*emiqrant*) boylardan yaranması məsələsi ön plana çəkilir. Dünya tarixşünaslığında dərin kök salmış yanlış konsepsiyaya görə Ön Asiyada türk boyları yerli deyil, gəlmə xalq sayılır. Azərbaycana gəlmə tarixini də heç bir arxeoloji bəlgəyə dayanmayan ayrı-ayrı Azərbaycan tarixçiləri m.ö. III minildən üzübəri ta X-XI əsrlərdəki səlcuqlu köçlərinə qədər müxtəlif dövrlərə aid edirlər.[4] Halbuki, «Doqquz Bitik»də yer alan bəlgələrə görə Azərbaycan və Güney-Doğu Anadolu prototürklərin Atayurdudur və böyük miqrasiyalar vaxtı doğu və quzey ölkələrə getməyib Azərbaycanda qalan protoazər boyları oturaq aborigen türklərdir. Burada Urmu teoriyası işığında gözdən keçirilən etnoqrafik bəlgələr də həmin gerçəkliyi əks etdirir. Saqa-qamər boylarının Ön Asiyayaya qayıdışı ilə başlanan qayıtmalar isə zaman-zaman kiçik köçlərlə təkrar olunmuş və yerli türklərlə bura qayıdan bozqır türklərinin konsolidasiyası baş vermişdir.

Toplumun yaddaşında kodlaşmış sosial normaların yaratdığı stereotiplər bir etnosu digərindən fərqləndirən əlamətlərdir. Etnosların içində yaranan belə fərqləndirici əlamətlər sinxron planda etnosun görkəmi, diaxronik planda isə etnosu formalaşdıran struktur elementlərdir. Yeyib-içmə, evlənib-boşanma, şadlanıb-kədərlənmə, geyinib-bəzənmə, tikib-toxuma, salamlaşıb-vidalaşma və bu kimi yüzlərlə davranış növü, yaşam kulturu bütün insanlara məxsusdur, ancaq hər kəs bu hərəkətləri istədiyi kimi deyil, mənsub olduğu etnosun qəbul etdiyi normalar çərçivəsində gerçəkləşdirə bilir. Burada *etnoqrafiya* termini etnosun yaşamında görünən etnik kultur növlərinin təsvir olunması kimi, *etnologiya* isə təsvir olunanların funksiyasını ümumiləşdirən elm sahəsi kimi qəbul olunur.

[3] Latınca *kolore* deyimində diqqəti çəkən *kol* (qol) sözü olsun ki, etrusklardan qalmadır.

[4] Geniş bilgi bu məqalə və kitabda verilmişdir: *Həsənov*, 2002; 2007, 18-23.

Bir tərəfdən *kultur* etnosun quruluşunu təşkil edən komponentlərdən olub etnik özəllikləri əks etdirirsə, digər tərəfdən etnik özəlliklər də etnosun özünü formalaşdıran faktora çevrilir. Burada qarşılıqlı əlaqə diaxronik yöndə konkret bir etnosun çeşidli kultur növlərinin yaranması və yaranmış kultur gələnəklərinin həmin etnosu başqa etnoslardan fərqləndirən əlamətlərə çevrilməsilə sonuclanır. Bir etnosun müxtəlif kultur növləri birlikdə həmin *etnosun mədəniyyəti* kimi qəbul olunur, bir etnosun (xalqın) mədəniyyəti onun kultur gələnəklərinin (yaşam tərzi, mətbəxi, geyimi və s.) toplusudur. Dünya mədəniyyəti belə çeşidlənmiş regional etnik mədəniyyətlərin müxtəlif xalqlar tərəfindən qəbul olunmuş toplusudur. Bu baxımdan, türk mədəniyyəti də dünya mədəniyyəti sisteminin bir hissəsi olub, ümumbəşəri sivilizasiyanın gəlişməsində önəmli yer tutur.

Əvvəlki bitiklərdə söyləndiyi kimi, prototürk Atayurdu Güney-Doğu Anadolu və qədim Azərbaycanın paleolit, mezolit və neolit dövrlərinə aid arxeoloji qaynaqlar göstərir ki, *antropogenez* mərkəzlərindən biri olan bu bölgədə daş dövrü boyunca Quruçay, Şanidar, Qobustan, Carmo və digər kulturlar yaranmış, buradakı lokal kulturlar arasında əlaqələr olmuşdur. Dünyada ilk *davamlı yaşayış* məskəni Azıxda ilk *ocaq*, *azıxantrop*, Carmoda ilk *saxsı*, ilk *basırıq*, Qobustanda ilk qayaüstü *Günəş qayığı* rəsmi, Urmu-Van arasında ilk *təkər-araba*, ilk *daşbaba gələnəyi* məhz prototürklərin Atayurdu sınırları içində ortaya çıxmış və ilk maldar-əkinçilik mərkəzlərindən biri burada yaranmışdır. Sadalanan «ilk»lərə bu bitikdə xeyli əlavə etnoqrafik «ilk»lər də qoşulacaqdır.

**Arxeoloji kultur tarixi**

I Bitikdə prototürk, protoazər və azər etnosuna aid arxeoloji kulturun etnik çalarlarını imkan daxilində müəyənləşdirməyə cəhd edilmiş, etnik atributlardan qısa da olsa, bəhs olunmuşdur. Etnoarxeoloji metodikanın əhəmiyyətini, etnik tarixin mərhələlər üzrə öyrənilməsində tarixi-müqayisəli dilçilik, paleoqrafiya ilə yanaşı, etnik arxeologiyanın geniş imkan açdığını qeyd edən A. Barta yazır: «Təəssüf ki, arxeoloji kulturda etnik identifikasiya üçün hələlik vahid metod mövcud deyil».[5]

Hər halda, yazılı qaynaqlar dövrünə düşən bölgələrdə türklüyü şübhə doğurmayan arxeoloji kultur özəlliklərinin daha qədim çağlara aid olan

[5] *Барта*, 1985, 11-13.



analoji özəlliklərlə müqayisə edilməsi, bu müqayisələrdə sistem yaradan paralelliklərin *etnoarxeoloji* göstərici sayılması elmi tədqiqat üçün məqbul metoddur. Bu baxımdan, islamöncəsi türk etnoarxeoloji atributlarının ilk qaynaqları Orta Asiyadan Altaya qədər olan ərazilərdə deyil, Ön Asiyanın qədim mədəniyyət beşiyi olan Dəclə çayının, Van və Urmu göllərinin hövzələrində ortaya çıxır. Bu sahədə aparılan tədqiqatlar göstərir ki, kurqan kulturu, bükülü və atlı basırıq adətləri və sair etnoqrafik gələnəklərin miqrasiyası Ön Asiyadan başlanmış, Orta Asiya və Quzey Qafqaz üzərindən Avrasiyaya yayılmışdır.

Çox da qədimə - etnosöncəsi dövrlərə getmədən, 10-12 minil öncə yığım dövründən çıxıb istehsal yaşamına keçmiş insanların etnik göstəricilərinin yarandığı ilk mərhələləri ortaya qoyan neolit, eneolit, tunc və dəmir çağlarına aid Ön Asiya arxeoloji kulturunun gəlişmə mərhələlərinə baxsaq, ortaya çıxan faktlar burada deyilən fikirlərə aydınlıq gətirər. Daş alətlərin təkmilləşdiyi son daş dövrünü əks etdirən arxeoloji qaynaqlar Azərbaycanda neolitin m.ö.VIII-VII minillləri əhatə etdiyini göstərir.[6] Bu çağın arxeoloji kulturunda maldarlıq, əkinçilik və toxuculuq sahəsində irəliləyiş, istehsal məhsullarının artımı, gil qab düzəltmə, dəri işləmə, tor hazırlama, paltar tikmə kimi yeniliklər görünür, Kərkük bölgəsində m.ö.VII minildə yaranmış *Carmo kulturunun*, Mosulun güneyində m.ö. 5800-cü illərdə formalaşan əkinçi *Xasun kulturunun* və cəmi üç əsr sonra naxışlı saxsı qablar istehsalı ilə seçilən *Xalaf kulturunun* əsasında gerçəkləşir.

İkiçayarasından Orta Asiyanın güney bölgələrinə qədər böyük bir regionda m.ö.VI-V minillər boyu özünü göstərən *eneolit* abidələri oxşar arxeoloji kulturla Azərbaycanın əksər bölgələrini əhatə edir.[7] Bu dövr bölgələr arasında əlaqələrin artması ilə, prototürk etnosunun formalaşması, prototürk dilinin gəlişməsi kimi mühüm tarixi ictimai hadisələrlə müşayiət olunur, heyvandarlıq və əkinçiliklə yanaşı metalişləmə, dulusçu-

[6] Urmu hövzəsində *Firuztəpə*, *Yanıqtəpə*, Luristan ətrafında *Əbdül-Hüseyn*, *Təpə-Quran*, Qəzvindən güneydə *Təpə-Zuğa*, Zaqros dağlarında *Carmo*, *Tell-Şemşar*, Mosulda *Xasun*, Arazdan yuxarıda Naxçıvan, Qarabağ neolit abidələri, *Şuşa mağarası*, Mingəçevir düşərgəsinin alt təbəqəsi, Gəncə ətrafında *Gillidağ*, *Gəncəçay* düşərgəsi neolit çağında davam edən *Damcılı*, Qobustanda bir neçə düşərgə və s

[7] Orta Asiyada neolit yerli mezolit kulturu üzərində davam etmiş, Kopet-daq və Qaraqum arasındakı ensiz zolaqda m.ö.VI minildə məşhur *Ceytun kulturu* yaranmışdır.

luq kimi sənətlərin də formalaşıb inkişaf etməsi, oturaq həyat üçün zəruri olan evlərin tikilməsi görünür. Ikiçayarasında VI minil və V minilin ortasına qədər Xasun, Samara, Eredu kulturunda əkinçi-maldarlığın çiçəklənməsi, V minilin sonu - IV minilin ortalarına qədər isə əkinçilikdə yeni süni suvarmanın gəlişdiyi, arx və kanalların çəkildiyi dövrdür. Dəclə çayı hövzəsində dalbadal yaranan Xasun, Xalaf, Ubeyd və Uruk lokal kulturlarının geniş yayılması sıx əlaqələr, kiçik köçlərlə gerçəkləşirdi. Əvvəlki gələnəklərin davamı kimi formalaşıb yeniləşən *Xalaf* kulturu VI minilliyin sonunda yaransa da, V minillikdə inkişaf etdi və onun təsiri daha geniş ərazilərdə özünü göstərməyə başladı.[*]

Akstafa rayonu ərazisində Soyuqbulaq basırığında aparılan qazıntıların Qafqaz arxeologiyasında yeni önəmli səhifə açdığını vurgulayan arxeoloq N. A. Müseyibli yazır ki, bu qazıntılarda alınan nəticələrə görə, kurqanların daha öncə yalnız yaşayış məskənləri ilə bəlli olan Leylatəpə kulturuna aid olması aydınlaşdı və Güney Qafqazda eneolit çağı əhalisnin basırıq özəlliyini öyrənmək imkanı yarandı, kurqan basırıq gələnəyinin tarixi burada minil qədimə çəkildi, həm də m.ö. IV minildə Mesopotamiyadan Qafqaza miqrasiya edən bəzi qrupların köçü ilə bağlı məsələləri araşdırmaq üçün ciddi qaynaq ortaya çıxdı.[9]

Dərbənd, Borçalı, Van, Mosul, Bağdad, Kəşan, Xorasan, Aşqabad boyunca keçən sınırlar içində yaranmış bütöv eneolit kulturunun lokal variantları arasında əlaqələr vardı. Ona görə də, Urmu ətrafına sızan erkən əkinçilərin İkiçayarasının quzey bölgələrindən gəlməsi ehtimalı böyükdür. Güney və Quzey Azərbaycana Ubeyd kulturunun təsiri m.ö. IV minilin ortalarına yaxın artmışdır. Minil sonra Urmu hövzəsində ortaya çıxan Aratta, Lulu, Qut, Turuk elləri buradakı prototürklərin ilk siyasi qurumları idi. Ona görə də, türk tarixi Urmudan başlanır və bu baxış *Urmu teoriyası* adlanır.

Tanınmış rus arxeoloqları Güney Qafqaz arxeoloji kulturunun Xasun, Xalaf və Ubeyd kulturunun təsiri altında oldugunu, bu təsirin kera-

[*] Mosul-Ərbil cıvarında - *Xasun, Arpaçı, Yarım-təpə II, Təpə-Qavar* yaranıb Sincar ovalıgına, orta Dəcləyə (*Çoqa-Mami*) yayılan bu kulturun ızınə Quzeydə Van gölünə yaxın *Tı:ki-təpə*, batıda Habur çayı hövzəsində *Tel-Barak, Çaqar-Bazar*. Aralıq dənizi tərəfdə *Uqarıt III* və doğuda bəzi Azərbaycan abidələrində rast gəlmək olur.

[9] *Мусеибли*, 2012, 24-25.



mika və antropomorf plastikada qabarıq göründüyünü yazırlar. Belə ki, Naxçıvn *Kültəpə I* qatında aşkar olunan naxışlı keramika Xalaf kulturuna aiddir. İkiçayarasının quzeyində m.ö. V minilə aid çiy kərpiçdən dairəvi yaşayış evinə söykənən düzbucaqlı tikililər eynən m.ö. V-IV minillərdə Güney Qafqazda təkrar olunur. Bəziləri bu paralelliyi Ikiçayarasından Qafqaza, bəziləri də Qafqazdan Ikiçayarasına olan təsir kimi, bəziləri də hər iki bölgədəki eyni tikinti üsulunun müstəqil yarandığını söyləyir.[10]

Xasun-Samara-Ubeyd arxeoloji kulturunu müqayisəli təhlil edən tarixçi Y. Zablotska Uruk kulturuna qədər Iran və İkiçayarası əhalisini qohum tayfalar sayır. Analoji eneolit kulturunu daşıyan Azərbaycan əmək alətləri, tikililəri, keramikası ilə Ön Asiya, xüsusilə yuxarı Ikiçayarası erkən əkinçilik kulturu ilə yaxınlıq təşkil edir.[11] *Yarımtəpə III* arxeoloji kulturu ilə *Leylatəpə* abidəsində paralelliyi müşahidə edən Azərbaycan arxeoloqları yazır: «Belə vəziyyət eramızdan əvvəl IV minilin birinci yarısında Qarabağ düzənliyində bina salmış qəbilələrin Mesopotamiyadan köçməsinə şübhə yeri qoymur».[12]

İkiçayarasından üzüyuxarı köç edən boylar m.ö.V minildə Güney Qafqazda (*Leylatəpə, Böyük-kəsik, Soyuqbulaq, Texut, Berikldebi*) xeyli iz qoymuş və buradan Quzey Qafqaza keçib orada *Maykop kulturunun* (m.ö. IV-III minil) yaranmasında iştirak etmişlər. Bu kulturun Ubeyd-Uruk arxeoloji gələnəklərinin müxtəlif çağları ilə müqayisə oluna bilməsini nəzərə alan uzmanlar Ön Asiyadan Qafqazın quzeyinə olan miqrasiyanın m.ö. 4000-2300 arasında dalğalarla baş verdiyini yazırlar. Hər halda, quzeyə miqrasiyanın Güney Qafqaz üzərindən olmasını əksər arxeoloqlar qəbul edir.[13] Urmu nəzəriyəsi də bunu deyir, deyir ki, həmin çağlarda İkiçayarası (Mesopotamya) bölgələrindən prototürk boylarının bir hissəsi Azərbaycan üzərindən Quzey Qafqaza keçmişdir.

Məncə, IV minilin ortalarında Araz çayının orta axarında ortaya çıxıb III minilin sonunacan davam edən Kür-Araz kulturu məhz həmin köç

[10] *Мунчаев-Мерперт*, 1981, 11.

[11] *Абибуллаев*, 1982, 37; *Мартынов*,1982, 83; *АЗ I*, 106; *Заблоцка*, 1989, 66; *Энеолит СССР*, 127.

[12] *AT*, I, 1998, 100; Son tədqıqatlar (*Soyuqbulaq* arxeoloji kultur) bu tarıxı qədimə çəkdi.

[13] *V.A.Qorodsov, M.I.Rostovtsev, M.Gimbutas, R.M.Munçayev, V.M.Andreyeva* və b.



Hörmətli oxucu,

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.